# Mətbuat katibləri jurnalistlərdən razıdırmı?

## Mətbuat xidmətlərində çalışanlar KİV təmsilçilərindən əsasən razılıq etsələr də, narazı qaldıqları məqamlar da var

**Müxtəlif qurumların məlumatlarının cəmiyyətə çatdırılmasında jurnalistlərlə yanaşı, mətbuat xidmətlərinin də rolu böyükdür. Belə ki, jurnalist ona lazım olan məlumatı dəqiq şəkildə almaq üçün dövlət qurumu və ya özəl şirkətin mətbuat xidmətinə müraciət edir. Məlumatı rahat şəkildə ala bildiyimiz mətbuat xidməti də olur, çətinliklə aldığımız da, heç ala bilmədiyimiz də.**



Mətbuat xidmətlərinin iş prinsipləri ilə bağlı jurnalistlər arasında dəfələrlə sorğu keçirilib və jurnalistlər mətbuat xidmətləri ilə bağlı öz fikirlərini açıq şəkildə bildiriblər. Bu dəfə isə biz mətbuat xidmətləri arasında sorğu keçirdik. Sualımız isə belə oldu: "Jurnalistlərin iş prinsipindən razısınızmı? Hər hansı çatışmazlıqlarla üzləşirsinizmi?"

### İSTİNAD PROBLEMİ

**Energetika Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zəminə Əliyeva** jurnalistlərin iş prinsipindən razı olduğunu dedi. Amma bəzi çatışmayan məqamların olduğunu da bildirdi: "Səhvə hər kəs yol verir. Amma peşəkarlar daha az səhv edir. Mən əsasən enerji sahəsi üzrə püxtələşmiş jurnalistlərlə işlədiyimə görə ümumilikdə əməkdaşlığımızdan razıyam. Anlaşılmazlıqlar olanda da yoluna qoya bilirik. Amma ümumilikdə götürəndə tələskənlik və bundan irəli gələn peşəkarlıq meyarlarına, informasiya ilə işləmənin şərtlərinə o qədər məhəl qoymamaq kimi hallar da az deyil".

**"Azəryolservis" ASC-nin mətbuat katibi Anar Nəcəfli** jurnalistlərin iş prinsipindən razı olduğunu dedi. A.Nəcəflinin narazılığı bəzən onların mövqeyi öyrənilmədən birtərəfli xəbər verilməsi ilə bağlıdır: "Mənim nömrəmi çox jurnalist bilir, bilməyənlər isə rahatlıqla tapa bilirlər. Bəzən hansısa bir saytda bizim mövqeyimiz olmadan xəbər gedir. Onu digər saytlar da istinadla verirlər, amma bizim mövqeyimizi öyrənmirlər. İstinadla iş bitmir. Əgər öz mətbuat orqanlarında xəbəri verirlərsə, bizim də fikirimizi öyrənməklə yayımlasalar, daha yaxşı olar. Əsas problem budur. Amma ümumilikdə razıyam".

"Sağlam tənqidə açıq bir qurumuq. İş olan yerdə tənqid də olmalıdır. Biz bunu normal hesab edirik. Amma tənqidi yazanda da münasibət öyrənsələr, yaxşı olar. Öz mövqelərini yazsınlar, amma bizim də mövqeyimiz getsin" - deyə A.Nəcəfli əlavə etdi.

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova** elə də böyük bir problem olmadığını və jurnalistlərlə işləməyə hər zaman hazır olduqlarını dedi: "Hazırda Azərbaycan mətbuatına yeni, gənc kadrların axını müşahidə olunur. Zərdabi ənənələrini davam etdirən jurnalistlər cəmiyyətin ölkədə baş verən sosial hadisələr haqqında məlumatlandırılmasında həlledici rol oynayırlar. Səhiyyə Nazirliyinin mətbuat xidməti olaraq biz daim jurnalistlərlə əməkdaşlığa hazırıq. Əminəm ki, Azərbaycan mətbuatı müasir dövrlə ayaqlaşaraq daha da inkişaf edəcək".

### MÖVZUYA QEYRİ-PEŞƏKAR YANAŞMA TƏRZİ

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat katibi Fazil Talıblı** deyir ki, bütün sahələr kimi jurnalistika da zamanla inkişaf edir: "İldən-ilə dövlətin bu sahədə apardığı siyasət, göstərilən diqqət-qayğı, jurnalistlərin sosial rifahının yaxşılaşdırılması ilə bağlı aparılan islahatlar öz sözünü deyir. Artıq jurnalistlərin peşəkarlığa doğru inkişaf meyilləri müşahidə olunur. Peşəkar jurnalistlərin sayı artır, öz üzərlərində işləməyə çalışırlar".

F.Talıblı çatışmazlıqlardan da danışdı: "Mövzuya yanaşmazdan öncə jurnalistdən müəyyən araşdırma aparması tələb olunur. Bəzən vaxt çatışmazlığından, bəzən səhlənkarlıq edərək mövzuya yanaşma tərzləri qeyri-peşəkar olur. Amma bu, faiz etibarilə çox aşağıdır. Ümumiyyətlə, biz komitə olaraq jurnalistlərin fəaliyyətindən və peşəkarlığından razılığımızı bildiririk. Hər birini də bizimlə əməkdaşlığa dəvət edirik".

**Dövlət Sosial Müdafiə Fondunun mətbuat katibi Əmrah Fəqanoğlu** reket tipli sayt və qəzetlərin müxbirləri istisna olmaqla bütün jurnalistlərin iş prinsipindən razı olduğunu dedi: "Çünki adını müxbir qoyan, amma əslində jurnalistikanın qayda-qanunlarından bixəbər olan həmin şəxslər yalnız böhtan və şantaj xarakterli cızma-qara yazmaqla məşğuldurlar. Peşəkar jurnalistlərlə isə bir həmkar olaraq həmişə qürur duyur və onların uğurlarını özümünkü hesab edirəm. "Kaspi" qəzetində çalışan dostlarımızın obyektivliyi və peşəkarlığı da göz qarşısındadır".

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova** jurnalistlərlə hər hansı problemlərinin olmadığını bildirdi: "Jurnalistlər arasında fərq qoymuruq. Biz məlumatları mütəmadi olaraq saytımızda yerləşdiririk, bundan başqa, xəbərləri jurnalistlərin elektron ünvanlarına göndəririk. Bütün mətbuat orqanları ilə qarşılıqlı, səmərəli fəaliyyət göstəririk. Jurnalistlərlə daim əməkdaşlığa hazırıq".

### UCUZ SENSASİYA İLƏ AUDİTORİYA QAZANMAQ

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Babayev deyir ki,** hər bir jurnalist üçün ən vacib iş prinsipi toxunduğu bu və ya digər mövzunun cəmiyyət üçün nə dərəcədə aktual olmasının nəzərə alınmasından, həmin mövzunun obyektiv və düzgün mövqedən işıqlandırılmasından, cəmiyyətə dəqiq və əsaslı informasiyaların təqdim edilməsindən ibarət olmalıdır: "Bu prinsipə riayət edən, işlədiyi mövzuya yaradıcı mövqedən yanaşan, hər cümləsini təhlil edib yazan və nəhayət, öz mövzusuna və yazı masasına (indiki təbircə desək, öz klaviaturasına) həmişə vicdanla yanaşan jurnalistlərimiz az deyil. Belə KİV nümayəndələri ilə əməkdaşlıq etmək, həqiqətən öz peşə maraqlarını ifadə edən jurnalistlərin sorğularını cavablandırmaq bizim üçün də maraqlı və əhəmiyyətlidir".

E.Babayev onu da bildirdi ki, bir sıra KİV-də ucuz sensasiya yaratmaq yolu ilə özünə auditoriya qazanmaq cəhdləri aydın hiss olunur: "Bu, orada çalışanların da "iş prinsipi"nə çevrilir və nəticədə həmin jurnalistlər özləri də bilə-bilə əsassız və həqiqətdən uzaq, ucuz sensasiyaya hesablanan "məlumat"lar yazmağa mübtəla olurlar".

**Gigiyena və Epidemiologiya Mərkəzinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Anar Qədirli** deyir ki, ümumilikdə jurnalistlərlə bağlı peşəkarlıq, mövzunu bilməmək, yazdıqları mövzuya tam hazırlıqlı olmamaq kimi problemlər var: "Amma mənimlə indi çalışan jurnalistlərdə bu problemləri görmürəm. Hamısı yazdığı mövzunu kifayət qədər bilir. Qeyd etdiyim problemləri isə ümumilikdə mövcud problemləri bildiyim üçün dedim".

### "KİÇİK BİR NÜANS JURNALİSTLƏRİN İŞ PRİNSİPİNDƏN NARAZI OLMAĞA ƏSAS VERƏ BİLMƏZ"

**"ASAN xidmət"in mətbuat xidmətinin rəhbəri Anar Hüseynov deyir ki,** "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladığı gündən etibarən KİV-lə dostluq və əməkdaşlıq münasibətləri qurulub. Onun sözlərinə görə, yeni yaranmış qurum haqqında vətəndaşların məlumatlandırılmasında jurnalistlərin rolu böyükdür: "Son 3 il ərzində jurnalistlər tərəfindən fəaliyyətimizlə bağlı yüzlərlə reportaj, müsahibələr və məqalələr hazırlanıb. Əsas məqsəd əlbəttə ki, vətəndaşları məlumatlandırmaq, maarifləndirmək, onlara faydalı, dolğun və düzgün informasiya çatdırmaqdır. Onlara məhz bu iş prinsipinə görə və eyni zamanda bizə hər zaman dəstək olduqları üçün xüsusi təşəkkürümü bildirirəm və işlərini yüksək qiymətləndirirəm".

**"BakuBus" MMC-nin mətbuat katibi Nuridə Allahyarova** deyir ki, heç olmasa 1 il jurnalist olaraq çalışan istənilən mətbuat katibinin razı olmadığı hər hansı kiçik nüans ümumi jurnalistlərin iş prinsipindən narazı olmağa əsas verə bilməz: "Mən də zamanında qısa müddət olsa da jurnalist olaraq çalışdığım üçün bu işin, bu peşənin hansı əziyyətlər hesabına başa gəldiyini şəxsi təcrübəmdə hiss etmişəm. Jurnalistin işi məlumat almaqdır, mətbuat katibi isə bu məlumatı ya verməli, ya da verməməsinin səbəbini izah edəcək mədəniyyətə sahib olmalıdır".

### MEDİA İLƏ ƏLAQƏLƏRDƏ "DOSTLUQ KÖRPÜSÜ"

**Qafqaz Universitetinin mətbuat katibi Ceyhun Vəliyev** deyir ki, universitet - media əlaqələrini "Dostluq körpüsü" üzərində qururlar: "13 il qəzetdə işlədiyim üçün demək olar ki, jurnalistlərin iş prinsipləri ilə tanışam. Hər gün operativ olaraq universitetdə keçirilən tədbirlər, yeniliklərlə bağlı məlumatları media orqanlarına göndəririk. Məlumatlarımız medianın yayım istiqamətinə uyğun olursa, yayırlar. Demək olar ki, hər gün universitetdə reportajların hazırlanması və televiziya çəkilişi üçün müraciətlər olur. Xüsusən universitetimizin müəllimlərinin ekspert kimi gündəmdəki mövzulara münasibət bildirməsi və tələbə həyatı ilə əlaqəli müraciətlər edilir. Bu günədək güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda dövlətçilik prinsiplərinə, milli maraqlara sədaqət nümayiş etdirən mətbuat orqanlarından və orada çalışan jurnalistlərin iş prinsipindən razı qalmışıq".

**Gənc Tamaşaçılar Teatrının mətbuat katibi Hüsniyyə Mursaquliyeva** deyir ki, jurnalistlərin iş prinsipi onu qane edir: "Artıq 6 ildir ki, teatrda mətbuat sahəsinə rəhbərlik edirəm. Bu müddət ərzində mətbuat nümayəndələrinin teatrımıza qarşı yalnız yaradıcılıq nöqteyi-nəzərdən müraciətlərin şahidi olmuşam. Təbii ki, istisnalar da danılmazdır. Yaradıcı münasibətlər istisnaları üstələyir".

H.Mursaquliyeva deyir ki, mətbuat xidmətinin öhdəlikləri KİV ilə sıx əməkdaşlıq edərək teatr haqqında media təmsilçilərinin bütün suallarını cavablandırmaqdırsa, mətbuat nümayəndələrinin də vəzifəsi teatrın ən son yeniliklərini çalışdıqları mətbu orqanda yaymaqdır: "Biz işimizi yaradıcılıq münasibətləri əsasında qurmağa çalışırıq. Əsassız şayiələr, mənasız söz-söhbətlər, mənbəyi məlum olmayan informasiyalar nə yaradıcı təşkilata, nə də ki belə informasiya daşıyıcılarına şərəf gətirmir".

**Aygün ASİMQIZI**

## 160 mədəniyyət evi qəzalı vəziyyətdədir

"Azərbaycanın rayon və şəhərlərində mədəniyyət evlərinə verilən dəstək, mədəniyyət evlərinin təmir olunması prosesi davam edir".

"Report" xəbər verir ki, bunu mədəniyyət və turizm naziri Əbülfəs Qarayev rayon-şəhər mədəniyyət mərkəzlərinin illik ümumrespublika müşavirəsində deyib.

O bildirib ki, hazırda rayonlarda 160 qəzalı mədəniyyət evi, 1187 təmirsiz, 649 təmirli mədəniyyət evləri və klub var: "Azərbaycanda 900-dən çox klubun və mədəniyyət evinin binası yoxdur. Bu məsələlər diqqət mərkəzindədir".